# Vətən müharibəsində Azərbaycan hərbçiləri peşəkarlıq, qəhrəmanlıq, həm də fədakarlıq göstərdilər



*Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Azərbaycanın ötən il sentyabrın 27-də işğalçı Ermənistana qarşı başladığı əks-hücum əməliyyatı ilə təcavüzkarın 30 il ərzində işğal altında saxladığı əzəli-əbədi torpaqlarımız azad olundu. Bu, ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasətinin və Azərbaycan Ordusunun qüdrətinin, döyüş ruhunun məntiqi nəticəsi idi. Dövlətimizin başçısının vurğuladığı kimi, müzəffər silahlı qüvvələrimiz bu savaşla təkcə faşist Ermənistan dövlətini deyil, həm də insanlığa qənim kəsilən faşizmi məğlubiyyətə uğratdı.***

Prezident İlham Əliyev avqustun 30-da Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimində çıxış edərkən bu məqama toxunaraq bildirdi ki, xalqımız erməni qəsbkarlığı, faşizmi ilə heç vaxt barışmadı: "İşğal dövründə mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, işğal edilmiş bütün torpaqları, o cümlədən, Şuşanı nəyin bahasına olursa-olsun işğalçılardan azad edəcəyik".

Dövlətimizin başçısı nitqində daha sonra Ermənistanın torpaqlarımızı tərk etməsi ilə bağlı aparılan danışıqlar prosesinin 30 ilə yaxın davam etdiyini, lakin bunun heç bir nəticəsi olmadığını vurğulayaraq, dedi ki, indiki hadisələrin gedişatı, habelə İkinci Qarabağ müharibəsindəki dövr və beynəlxalq güclərin hərəkətləri onu göstərir ki, bu məsələ heç vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi: "Çünki bizi, azərbaycanlıları bu vəziyyətlə barışdırmaq istəyirdilər. Bu vəziyyəti, yəni, dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar. Bizim isə tam başqa fikrimiz var idi və mən bunu heç vaxt gizlətmirdim. Deyirdim ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, biz öz ərazi bütövlüyümüzü müharibə yolu ilə bərpa edəcəyik. Beynəlxalq hüququn bütün norma və prinsipləri bu haqqı bizə tanıyır. BMT-nin Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, tarixi ədalət bu haqqı bizə verib. Biz buna nail olduq".

Bəli, Azərbaycan itirilmiş torpaqlarına, haqq-ədalətə 30 il ərzində apardığı danışıqlarla deyil, müharibə, döyüş yolu ilə qovuşdu. Qırx dörd günlük Vətən savaşında parlaq qələbə qazanıldı. Prezident İlham Əliyevin vurğuladığı kimi, tariximizdə əbədi yaşayacaq bənzərsiz bir zəfərlə düşmən doğma diyarımızdan qovuldu, Qarabağ qaytarıldı, ərazi bütövlüyümüzə nail olundu, şəhidlərimizin qisası alındı. Beləliklə, ədalət, beynəlxalq hüquq bərpa edildi.

Dövlətimizin başçısı yuxarıda xatırlatdığımız çıxışında diqqətçəkən bir məqama da toxundu. Bildirdi ki, işğal dövründə bir çoxumuz – həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də Azərbaycan Prezidenti fikirləşirdi ki, dünyada ədalət yoxdur. Çünki bu, olsaydı, ölkəmiz bu vəziyyətə düşməzdi: "Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi...".

Vətən müharibəsində tarixi qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun yüksək peşəkarlığı, rəşadəti, cəsarəti, qəhrəmanlığı, eyni zamanda, fədakarlığı nəticəsində əldə olundu. Belə bir müzəffər ordunun yaradılması isə dövlətimizin başçısının prezidentlik fəaliyyəti dövründə hər zaman diqqət yetirdiyi prioritet istiqamətlərdən biri idi. Xatırladaq ki, 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev demişdi: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Ölkə rəhbəri ötən illər ərzində bu vədinə sadiq qaldı, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər gördü. Silahlı qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına nail oldu. Azərbaycan Ordusu bu gücqüdrətini 2016-cı ilin aprelində sübut etdi. Həmin ayın 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, silahlı qüvvələrimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini düşməndən təmizlədi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Ordumuz dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı.

Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Düşmənin 320-dən artıq hərbçisi məhv edildi, 500-dən artıq hərbi qulluqçusu yaralandı, 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri dağıdıldı. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqelər ələ keçirildi.

Azərbaycan Ordusu daha bir uğuru Aprel döyüşlərindən iki il sonra– 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazandı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Ermənistan bütün bu dərslərdən nəticə çıxarmadı. Ötən il iyul ayının 12-16-da Azərbaycan – Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində daha bir məqsədyönlü təcavüzkar hərəkəti törətdi. Bu silahlı hücum təsadüfi bir hərbi insident olmayıb, Ermənistanın Azərbaycan Respublikasına qarşı qanunsuz güc tətbiqinin növbəti açıq təzahürü kimi diqqət çəkdi və ölkəmizin yeni ərazilərini zəbt etmək məqsədi daşıdı.

Bədxah düşmənin təcavüzü bu dəfə də silahlı qüvvələrimiz tərəfindən layiqincə cavablandırılmasına baxmayaraq, Ermənistan yenə növbəti işğalçı siyasətini həyata keçirmək iddiasından əl çəkmədi. Bunun üçün hazırlıqlara başlayıb, külli miqdarda silah və sursat tədarük edib, qüvvələrini təmas xətti boyunca cəmləşdirdi. Hətta Azərbaycana qarşı müharibə aparmaq üçün on minlərlə mülki şəxsdən ibarət hərbi dəstələr yaradıldığını elan etdi.

Yeri gəlmişkən, ötən müddətdə ordumuz tərəfindən aparılan əks-hücum əməliyyatlarının ən böyük nəticələrindən biri o oldu ki, silahlı qüvvələrimiz mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq baxımdan Ermənistan ordusunu müqayisəolunmaz dərəcədə qabaqladığını təsdiqlədi və təbii ki, düşmən də bu üstünlüyü tam anladı. Erməni ictimaiyyəti bu prosesdə gerilədiyini, uduzduğunu öz üzərində açıq-aydın hiss etdi.

Ermənistan ordusunun ötən il sentyabrın 27-də təxribat törədərək, ölkəmizə hücuma keçməsi, müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutması Azərbaycan Silahlı Qüvvələrini əks-hücum əməliyyatlarına başlamağa məcbur etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 gün davam edən müharibədə möhtəşəm qələbə qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz" ordu mifini birdəfəlik darmadağın etdi.

Azərbaycanın bu möhtəşəm qələbəsi Prezident İlham Əliyevin uzun illər ərzində apardığı uğurlu xarici və daxili siyasətlə bərabər, ordu quruculuğu sahəsində fədakar fəaliyyətinin məntiqi nəticəsidir. Elə buna görə də bu gün bir çox ölkələrdə Azərbaycanın hərbi təcrübəsi öyrənilir. Hazırda bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib. Prezident İlham Əliyev bununla bağlı çıxışlarının birində deyib: "Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq".

Prezident, həmçinin qeyd edib ki, təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil. "Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Deməli olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik", – deyə ölkə rəhbəri vurğulayıb.

Onu da qeyd edək ki, son bir neçə ilin statistikasına əsasən, ölkəmiz müasir silahlanmaya görə, Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub. Şübhəsiz ki, bütün bu uğurlar dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub.

Əgər belə olmasaydı, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına reallaşdıra, hərb meydanında düşmənə qalib gələ, cəbhə xəttinin bütün istiqamətlərində əməliyyat şəraitinə tam nəzarət edə bilməzdi.

Sonda bir məsələyə də diqqət yetirmək istərdik. Vətən müharibəsinin başlamasından bir ilə yaxın vaxt keçir. Bu müddətdə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Eyni zamanda, Birinci Qarabağ müharibəsindən bu günə kimi, şəhid ailələrinin üzvlərinə, müharibə əlillərinə göstərilən diqqət və qayğı davam etdirilir, onların problemlərinə həssaslıqla yanaşılır. Prezident İlham Əliyev avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinin üzvləri, müharibə əlilləri və Vətən müharibəsi qəhrəmanları ilə görüşü zamanı etdiyi çıxışında bununla bağlı deyib: "Döyüşlərdən keçən aylar ərzində şəhid ailələri, Qarabağ qaziləri ilə görüşlər əsnasında tam başqa ab-hava hökm sürür. Əgər əvvəlki illərdə biz hər zaman şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq, bu gün qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq, ədaləti bərpa etdik, düşməni torpağımızdan qovduq və müzəffər xalq kimi dünya tarixinə öz adımızı yazdıq. Bu gün Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə saxlamaq üçün böyük işlər görülür və görülməlidir.

*(ardı 2-ci səhifədə)*

# Vətən müharibəsində Azərbaycan hərbçiləri peşəkarlıq, qəhrəmanlıq, həm də fədakarlıq göstərdilər

*(əvvəli 1-ci səhifədə)*

Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir. Ancaq bununla yanaşı, əlbəttə ki, bu proses müəyyən müddət davam etdiriləcək. Çünki yaxın gələcəkdə bu problem tamamilə aradan qaldırılacaq...”.

Hazırda Vətən müharibəsi şəhidlərinin və itkin düşmüş hərbçilərin ailələrini, yaralanmış hərbçiləri, erməni terrorundan zərər çəkənləri və müharibə iştirakçılarını, ümumilikdə, 6 minədək şəxsi əhatə edən sosial tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev tərəfindən Vətən müharibəsindən sonra imzalanan bir sıra fərman və sərəncamlarla həssas əhali qruplarına göstərilən qayğı və diqqət daha da artırılıb. Məsələn, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”na dəyişiklik olunub və şəhid statusu Gəncə və Naftalan şəhərlərində, Bərdə rayonunda erməni təxribatı nəticəsində həyatlarını itirən mülki şəxslərə də aid edilib. Bundan başqa, dövlət başçısının müvafiq fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanına Prezidentin aylıq təqaüdünün məbləği 20 faiz artırılaraq 1500 manatdan 1800 manata çatdırılıb.

İkinci Qarabağ müharibəsində möhtəşəm qələbənin əldə edilməsində şücaət göstərən Vətən müharibəsi qəhrəmanlarının sosial müdafiəsinə də xüsusi önəm verilib. Belə ki, Azərbaycan Prezidentinin imzaladığı müvafiq fərmanla sosial təminat sistemində yeni təqaüd növü kimi, Vətən Müharibəsi Qəhrəmanı üçün Prezidentin aylıq təqaüdü (2 min manat) təsis olunub.

Dövlətimizin başçısının 2021-ci il 25 yanvar tarixli “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncamı da həmin kateqoriyadan olan əhali qruplarına ölkə rəhbərinin xüsusi qayğısının bariz ifadəsidir. Bu, eyni zamanda, Prezident İlham Əliyevin xalqımızın, xüsusilə həssas təbəqənin rifahının daha da yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlamasından xəbər verir.

Prezident İlham Əliyevin “Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında” 25 avqust 2021-ci il tarixli Sərəncamı isə bu prosesin ardıcıl xarakter aldığını göstərir və bu kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır.

Yeri gəlmişkən, respublikada müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər sırasında onların mənzil və fərdi evlə, avtomobillə təmin olunmaları xüsusi yer tutub. Qeyd edək ki, indiyədək 7200 müharibə əlili avtomobillə təmin olunub. Cari ildə isə ümumilikdə, 160-dan çox avtomobilin verilməsi nəzərdə tutulub. Həmçinin 1997-2021-ci illərdə şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev təqdim edilib. Prezident İlham Əliyevin bu ilin yanvarında imzaladığı müvafiq sərəncamla bu sahədə yeni proqramlar təsdiqlənib. Həmin sənədə əsasən 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

Respublikada müharibə veteranlarının reabilitasiya vasitəsilə təminatına da xüsusi önəm verilib. Belə ki, cari ilin əvvəlindən indiyədək 26 min 200 nəfər reabilitasiya vasitəsilə təmin olunub, 2600 nəfərə isə reabilitasiya xidmətləri göstərilib. Bu qəbildən olan vətəndaşların orta aylıq əməkhaqqı 2018-2020-ci illərdə 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artırılıb. Postmüharibə dövründə 26 min nəfərə 36 min xidmət göstərilib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2021.- 9 sentyabr.- S.1;2.